Azərbaycan Respublikasının Nazirlər Kabineti

**N 150** **QƏRAR** **Bakı şəhəri, 7 aprel 2016-cı il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 dekabr tarixli 381 nömrəli qərarı ilə təsdiq edilmiş "Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı SMS məlumatlandırma Qaydaları"nda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin "Bakı şəhərində nəqliyyat sahəsində islahatların keçirilməsinə dair əlavə tədbirlər haqqında" 2015-ci il 21 dekabr tarixli 709 nömrəli Fərmanının 9.2-ci bəndinin, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli Fərmanının 3.5-ci bəndinin və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli Fərmanının 3.5-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 dekabr tarixli 381 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, N12, maddə 1659) ilə təsdiq edilmiş "Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı SMS məlumatlandırma Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2-ci bəndə "göndərilməsi" sözündən sonra "Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində müvafiq olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi və Gəncə Şəhər İcra Hakimiyyəti yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi (bundan sonra - müvafiq qurumlar), Azərbaycan Respublikasının digər ərazilərində isə" sözləri əlavə edilsin.

2. 2.1-ci və 2.6-cı bəndlərdə "Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin" sözləri "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyinin" sözləri ilə əvəz edilsin.

2.4-cü bəndin ikinci cümləsinə "qiyməti" sözündən sonra "Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində müvafiq qurumlar, Azərbaycan Respublikasının digər ərazilərində isə" sözləri əlavə edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***